ZAHİR MƏLİKLİ

# RUS GƏMİSİNDƏ İNTİHAR

qanun nəşriyyatı

**Zahir Məlikli. Rus gəmisində intihar**
Bakı, Qanun Nəşriyyatı, 2025, 280 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 27.11.2025

| | |
|---|---|
| Redaktor: | Şərif Ağayar |
| Korrektor: | Aygül Yelmarlı |
| Rəssam: | Zahir Məlikli |
| Dizayner: | Nuray Mirzəxanlı |
| Mətn dizaynı: | Gülnar Məmmədkərimli |
| Qapaq dizaynı: | Rövşən Abbas |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-606-57-7

© Zahir Məlikli, 2025

© Qanun Nəşriyyatı, 2025

Ədəbiyyat və incəsənət sahəsində özünəməxsus dəsti-xətti olan pedaqoq, yazıçı-publisist, tərcüməçi, rəssam Zahir Məliklinin bu əsəri detektiv janrda deyil, sırf sosial-məişət mövzusunda qələmə alınmışdır. Hadisələr birinci şəxsin dilindən nəql edilir və əsərə avtobioqrafik roman əhvalı qatır. Kəskin süjetli əsərdə əsas iştirakçı müəllif özüdür və hadisələr onun iştirakı ilə cərəyan edir.

Milli mentalitet, əxlaq, namus, ailə tərbiyəsi, zərərli vərdişlərin, xüsusilə ifrat alkoqol istifadəsinin acı nəticələri, həsəd və tamahın fəsadları, halal zəhmət və işgüzarlıq ön plana çəkilməklə, əsərdə, əslində, xeyirlə şərin mübarizəsi qələmə alınır. Bu kontekstdə hadisələr sovet, yenidənqurma və durğunluq dövrünü, eyni zamanda, müasir dövrü əhatə edir. Əsər geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

“O və yerdə qalanlar”, “Yerlə göy arasında”, “Enmək təhlükəsi”, “Torpağı Vətən edənlər”, “Məhəbbət qürbətə gedərmiş” kitablarından sonra, bu, müəllifin sayca altıncı kitabıdır.

*Bizim həyatımız xoşbəxtliyin və bədbəxtliyin, yoxsulluğun və zənginliyin, həqarətin və əzəmətin, qürurun və xəcalətin, yeni, ürəyimizcə olmayan işin, yaxud potensial işsizliyin sevinc və kədər zirvələrindən keçir...*

## ZAHİR MƏLİKLİ VƏ
## ONUN AVTOBİOQRAFİK ROMANI

Zahir Məliklinin bütün yazılarında olduğu kimi sadə xalq dilində yazılan, danışıq dilinə yaxın, qəliz ibarə və cümlələrdən uzaq, çox oxunaqlı bu əsərini avtobioqrafik roman adlandırmaq olar. Müəllif əsasən özünün gördüyü, şahidi və iştirakçısı olduğu ekstrim, gözlənilməz fakt və hadisələri xronoloji ardıcıllıqla canlandırır. "Şəxs-şəxsləri, obraz-obrazları" (Belinski) bildirir.

Mətnin gözlənən və gözlənilməz epizodlarla dolu süjet xətti çox maraqlı və oxunaqlıdır. Dırnaqarası "xoşbəxt", əslində kasıb sovet dövründə azmaaşlı lümpen proletarlar və kolxozçu kəndlilər, o cümlədən həmin siniflərə məxsus ziyalılar, əsasən bir "şineldən çıxmış" vətəndaşlar idilər. Hələ rüşvət və korrupsiya indiki kimi kütləviləşməmişdi, mütəşəkkil cinayətkar qruplar, xüsusi, gizli "sexovşiklər" geniş əl-qol açmamışdı. İctimai mülkiyyət formaları – kolxoz və sovxozlar formal da olsa, fəaliyyət göstərirdi. İdeoloji rıçaqlar o qədər güclü idi ki, minimum əmək haqqının çox aşağı olduğu və inflyasiyanın bilmərrə olmadığı bir dövrdə xırda alverçiliyə Lenin burjuaziyaya baxan kimi baxırdılar. Partiya və nomenklatura işçiləri bu kimi kadrları təcili güdaza vermək və cəzalandırmaq üçün hələ də "inqilabi sayıqlıqlarını" itirməmişdilər.

Süleyman Rüstəm demişkən:

*Oxuyun, bir qızıl kitabəm mən!*
*İnqilab oğlu inqilabəm mən!*

Bu barədə bir qədər sonra konkret detallarla bəhs edəcəyəm.

Zahir Məlikli bu avtobioqrafik romanında həyat yolunda rast gəldiyi, gördüyü, yaşadığı hadisələri realistcəsinə təqdim edir. Hadisələrin təhkiyəsi də rəvan və maraqlı olduğundan əsər çox oxunaqlı və cazibədardır. Əlbəttə, müəllif başına gələnləri quru təsvirçiliklə təqdim etsəydi, əsər sxematik və cansıxıcı görünərdi. Ən başlıca uğur ondadır ki, o dövrün tarixi-siyasi hadisələrinə obyektiv ictimai məzmun verə bilmişdir.

Ucqar dağ rayonunda, dağ kəndində müəllim ailəsində dünyaya gəlmiş bir gəncin böyüdüyü saf ailə ocağı, təbii sosial mühit çox usta qələmlə təsvir olunub. Hadisələr milli-dini görüşlərə, adət-ənənələrə, ailə tərbiyəsinə söykənən mühafizəkar, həm də yaradıcı, kreativ, istedadlı bir gəncin böyüyüb ali təhsil alması, öz kəndlərinə müəllim kimi qayıtması fonunda inkişaf edir.

Sosrealizm dövründə İttifaq ölkələrinə səfər edərkən xarici pasport, viza rejimi tələb olunmurdu. O zaman sovet pasportu ilə 15 müttəfiq respublikanı maneəsiz gəzib-səyahət etdikdən sonra öz vətəninə qayıdarkən, özünlə bəzi az tapılan geyim əşyaları, zəruri ərzaq məhsulları və s. alıb gətirəndə bu əməli sovet adamına xas olmayan xırda alverçilik, xüsusi mülkiyyətçilik, möhtəkirlik kimi damğalayırdılar.

“Aşkarlıq”, “keçid” dövründə biz sovet rejiminin süqutuna gətirib çıxaran fakt və hadisələrin canlı şahidinə çevrilirik.

Milli-dini münaqişələrlə müşayiət olunan 20 Yanvar qırğını, ermənilərin Dağlıq Qarabağa ərazi iddiaları ilə bağlı separatçı əməlləri, yerlərdə hökm sürən xaos, İran sərhədinin açılması, qaçaqmalçılıq və s. hadisələr konkret faktlar və tarixi-xronoloji ardıcıllıqla nəql edilir.

Romanda müstəqillik illəri də müəyyən dərəcədə yer tutur. Müəllif özü bu barədə yazır: "Ölkədə yavaş-yavaş sabitlik bərpa olunurdu. Əvvəlki ərzaq qıtlığı da aradan götürülmüşdü. Kiçik və orta sahibkarlıq inkişaf etməkdə idi. Artıq sahibkarlar ölkəyə kənd təsərrüfatı texnikaları da gətirməyə başlamışdılar. Çətin də olsa, kəndçi üçün kombaynlar da tapılırdı. Tırtıllı traktorları güclü təkərli traktorlar əvəz edirdi. Ona görə mənim ixtira etdiyim taxıldöyənə də ehtiyac qalmamışdı. Hələ "yenidənqurma" dövründən başlayaraq rayonumuzda ilk firmanı (ilk cücərtiləri "kooperativ" adlanırdı, sonra MMC oldu) mən təsis etdim. Onda hələ rayon Partiya Komitəsi qalırdı. Birinci katib Fəzail Tağıyevlə rayondakı böyük bir sərgidə tanış olmuşduq və aramızda dostluq münasibəti yaranmışdı. Çox işgüzar, novator və sənət pərəstişkarı olduğundan istedadlı, vergili adamları axtarıb tapırdı. Elə onun tapşırığı ilə o zaman Bakı şəhərində keçirilən 1-ci İran-Azərbaycan biznes konqresinə göndərilmişdim".

Bu sətirləri oxuyarkən müəllifi yeni dövrdə novator bir sahibkar, həm də yaradıcı sənət adamı kimi görürük.

Beləliklə, gəncliyinin qaynar çağı keçid dövrünə düşən müəllifin avtobioqrafik səciyyəli bu əsərində siyasi quruluşların dəyişməsi fonunda tarixi dövrün mənzərəsi öz təcəssümünü tapır. Belə ki, illər ötəcək, çox da bizdən uzaqda olmayan həmin tarixi keçmiş artıq gələ-

cək nəsillər üçün də getdikcə uzaqlaşacaq, müasirlərimizin də cismən həyatda olmayacaqları uzaq gələcəkdə bu əsər canlı şahid kimi diqqəti cəlb edəcək.

Ekzistensializmə görə, yaradılış insanın maddi mövcudluğundan əvvəl yaranıb. İnsan ekzistensial bir varlıqdır. Yaşadığı ictimai-iqtisadi formasiyadan asılı olmayaraq təbii, yaxud sosial zərurətin təsiri altında formalaşır. Çünki təbiəti etibarilə azad yaranan insan gördüyü hər bir işə, reallaşdırmaq istədiyi hər bir əmələ görə məsuliyyət daşıyır, şəraitə görə dəyişmir, şəraiti dəyişir, konyunkturaya yol vermir. İnsan öz səhv və düzgün hərəkətlərilə özünü tanımalı, özünün kimliyini müəyyən etməlidir. Rumi demişkən, insan "göründüyü kimi olmalı, olduğu kimi görünməlidir". Heç bir güc, varlıq, kənar təsirlər insanın özündən və şəxsi mənliyindən üstün deyildir. Hər kəs özünü mühakimə etməli, ittiham etməli, subyektiv olduğu qədər də obyektiv olmalı, öz iradəsilə gələcəyini yaratmalıdır. Bir də insanı insan edən, qəhrəman edən öz qərarları, şəxsi təşəbbüsləridir, fəal həyat mövqeyidir. Əsas məsələ həqiqətə nail olmaqdır. Bu həqiqət obyektiv həqiqət deyil, subyektiv həqiqətdir. Yəni insan hamı üçün qəbul edilən doğruları deyil, şəxsi qəbul etdiyi, yəqin bildiyi doğruları üstün tutmalıdır.

Azadlıq insanın özünün seçimidir. İnsan özünün yaxşı-pis hərəkətlərini dərk etməli, özünə "şəraitlə" haqq qazandırmamalıdır. Ekzistensializmin predmeti məhz bu cür "varlığı" olan insandır.

Ekzistensial böhran baş verir, təcrid və təklik hissləri güclənir, şəxsi münasibətlərə və gündəlik həyata mənfi təsir göstərir, insanı ümidsizliyə və intihara sövq edir.